UOT 373.2

*Səbinə Akif qızı Qurbanova*
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TOLERANT ŞÜURUN FORMALAŞMASINA TƏKAN VERƏN PSİXOFİZİKİ XÜSUSİYYƏTLƏR

*Сабина Акиф гызы Гурбанова*
*диссертант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ПСИХОФИЗИЧЕСКИЕ ОСОБЕННОСТИ, СПОСОБСТВУЮЩИЕ ФОРМИРОВАНИЮ ТОЛЕРАНТНОГО СОЗНАНИЯ У ДОШКОЛЬНИКОВ

*Sabina Akif Gurbanova*
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State University*

# PSYCHOPHYSICAL FEATURES THAT CONTRIBUTE TO THE FORMATION OF TOLERANT CONSCIOUSNESS IN PRESCHOOLERS

**Xülasə.** Məktəbəqədər yaşlı uşağın mənəvi-estetik hisslərinin formalaşdırılması yollarının təhlili göstərir ki, bu yaşda olan uşaqlarla işləyərkən incəsənət pedaqogikasına daha çox diqqət yetirilməlidir, çünki bu, uşağı dünya mədəniyyətinə, sənət əsərlərinin gözəlliyinə, xalq adət-ənənələrinə tanıtmaqla yanaşı, həm də bədii əsərlərin yaradılmasında iştirak etməyə, rəssamlıq, musiqi, ədəbiyyat dilini başa düşməyi öyrənməyə imkan verir.

Məktəbəqədər yaşlı uşaqlar, kiçikyaşlı məktəblilər və yeniyetmələr üçün ayrıca tolerantlıq tərbiyəsinə mövcud yanaşmalar spektrini nəzərə alaraq, məktəbəqədər və kiçikyaşlı məktəbli uşaqlarda tolerantlığın formalaşmasında davamlılığın nəzərə alınmasının vacibliyindən, uşağın bütün gələcək estetik, mədəni və mənəvi inkişafı üçün məktəbəqədər yaşda qoyulan təməldən danışmaq olar.

***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaqlar, tolerant şüur, emosional təxəyyül, psixofiziki xüsusiyyətlər, uşaq fəaliyyət növü, uşağın bilinqvist və bikultural inkişafı.*

**Резюме**. Анализ путей формирования нравственно-эстетических чувств у ребенка дошкольного возраста показывает, что при работе с детьми этого возраста большее внимание следует уделять художественной педагогике, так как она наряду с приобщением ребенка к мировой культуре, красоте произведений искусств, народным традициям, так же позволяет участвовать в создании художественных произведений и учит понимать язык живописи, музыки, литературы.

Учитывая спектр существующих подходов воспитания толерантности для детей дошкольного возраста, младших школьников и подростков, можно говорить о важности учета устойчивости в формировании толерантности у детей дошкольного и начального школьного возраста, о заложенной основ в дошкольном возрасте для всего будущего эстетического, культурного и духовного развития ребенка.

***Ключевые слова:*** *дети дошкольного возраста, толерантное сознание, эмоциональное воображение, психофизические особенности, вид детской деятельности, билингвальное и бикультурное развитие ребенка*

**Summary.** Analysis of ways of formation the moral and aesthetic feelings of preschool children shows, that when working with children of this age, more attention should be paid to art pedagogy, as it not only introduces the child to world culture, beauty of works of art, folk traditions, but also participation in art, allows you to learn to understand the language of painting, music, literature.

Given the range of approaches to tolerance education available for preschoolers, young schoolchildren and adolescents, the importance of sustainability in the formation of tolerance in preschool and primary school children is the foundation for all future aesthetic, cultural and spiritual development of the child.

***Key words:*** *preschool children, tolerant consciousness, emotional imagination, psychophysical characteristics, type of child activity, bilingual and bicultural development of the child*

Məlum pedaqoji konsepsiyaya (A.V.Zaporojesin) görə, məktəbəqədər yaşda formalaşmağa başlayan uşaq fəaliyyətinin mürəkkəb formalarında emosionallıq, öncə duyma (qabaqcadan hiss etmə, düşünmə) mühüm rol oynayır. Nəzəriyyə sahibi iddia edir ki, "emosiyalar həyat və tərbiyənin sosial şəraitinin təsiri altında getdikcə daha zəngin məzmun və daha mürəkkəb təzahür formaları əldə edərək mütərəqqi inkişaf yolu keçir" [1, s.10]. Uşaqların duyğuları uşağın praktiki fəaliyyəti prosesində, onun ətrafdakı insanlar və obyektlər aləmi ilə qarşılıqlı əlaqəsi zamanı formalaşır. Həmyaşıdları ilə birgə fəaliyyət uşaq üçün xüsusilə vacibdir. O zaman o, "etik davranış standartlarından (davranış qaydaları və normaları, ədalətli – ədalətsiz hərəkətlər)" istifadə etməyə başlayır [1, s. 66].

Gələcəkdə emosional təcrübə əsasında uşaqda emosional təxəyyül formalaşacaq. Sosial həyat şəraitinin təsiri ilə onda mənəvi, estetik və intellektual hisslər yaranır və inkişaf edir. Hisslərin tərbiyəsini A.V. Zaporojes hətta uşağa müxtəlif bilik və bacarıqları öyrətməkdən daha vacib məsələlərdən biri hesab edir. O, hisslərin tərbiyəsinin üstünlüyünü bilik və bacarıqlarla müqayisədə gələcəkdə istifadə olunacaq məqsədlər üçün daha vacib olması ilə izah edir. Bu məqsədlər "subyektin ətrafdakı insanlara və onu əhatə edən maddi reallığa emosional münasibətindən" asılıdır [1, s. 7].

Şəxsiyyət tərbiyəsi məktəbəqədər dövrün əsas vəzifəsidir. Uşaq şəxsiyyətinin strukturunda yeni səviyyələrin – zehni obrazların və davranışın sosial və mənəvi tənzimlənməsinin əsaslarını inkişaf etdirir. Onlar, A.V. Zaporojesə görə, üç əsas fəaliyyət növündə həyata keçirilir: oyun, məhsuldar fəaliyyət və bədii qavrayış. Bundan əlavə, müəllif uşaq şəxsiyyətinin bədii vasitələrlə tərbiyəsinə böyük əhəmiyyət verirdi. O, incəsənətin insana təsirinin həyata keçirildiyi konkret "kanallar" müəyyən etmiş, bu təsiri gücləndirən pedaqoji texnikalar işləyib hazırlamışdır. Bədii fəaliyyətin üç əsas formasını müəyyən edərək: qavrayış, icra və yaradıcılıq, A.V. Zaporojes bədii qavrayışın öyrənilməsinə diqqət yetirdi.

A.V. Zaporojesin ideyaları təkcə Rusiya Təhsil Akademiyasının Məktəbəqədər Tərbiyə İnstitutunda və məktəbəqədər tərbiyə fakültələrinin kafedralarında deyil, həm də Rusiya Təhsil Akademiyasının İncəsənət Təhsili İnstitutunda daha da inkişaf etdirildi. Bu elmi müəssisələrdə müasir şəraitdə məktəbəqədər təhsilin inkişafı problemlərinin işlənməsində maraqlı dəyişikliklər qeydə alınıb. Rusiya Təhsil Akademiyasının İncəsənət Təhsili İnstitutunda yaradılmış bir sıra proqramlarda və tədris vəsaitlərində müxtəlif sənət növlərinin inteqrasiyasına və sintezinə əsaslanaraq, tələbələrin əxlaqi, o cümlədən tolerantlıq tərbiyəsinin müxtəlif üsulları təqdim olunur, məktəbəqədəryaşlı uşaqların xüsusiyyətləri nəzərə alınır. Belə ki, İ.A. Lıkovanın proqramında məktəbəqədəryaşlı uşaqların tərbiyəsinə poliestetik yanaşma nəzərə alınmaqla, bütün məktəbəqədəryaşlı uşaqların yaş qrupları üçün modelləşdirmə, tətbiqetmə və rəsm kursu təqdim olunur [2].

İ.V. Malseva uşağın bilinqvist və bikultural inkişafına öz yanaşmasında tolerant şüurun formalaşmasına təkan verən incə motorika bacarıqlarının inkişafına əsaslanır [3]. Bir anda iki (və ya bir neçə) mədəniyyətin qavranılması kontekstində ümumi faydalı (əhəmiyyətinə heç kimin şübhə etmədiyi) bacarıq və qabiliyyətləri inkişaf etdirərək, uşaq dünyanın mədəni müxtəlifliyinə hörmət etməyi öyrənir.

Uşaqların ilkin biliyə marağının formalaşması kiçikyaşlı uşaqların psixofiziki xüsusiyyətlərini nəzərə alınmadan mümkün deyil. Uşaqlar əla təqlidçilərdir, bu isə o deməkdir ki, onların təqlid etmək qabiliyyəti xüsusilə erkən yaşlarda son dərəcə yüksəkdir. Əvvəlcə uşaq yeni bir hərəkətin icrasının müşahidə prosesinə daxil edilməli, sonra bu hərəkətin təkrarlama mərhələsində onun səylərini dəstəkləməlidir. Bütün uşaqlar yaxşı olmaq istəyirlər. Buna görə də uşağı ən kiçik uğuru, səyi, sadəcə ona nail olmaq istəyi üçün mümkün qədər tez-tez tərifləmək lazımdır, onun diqqətini bir tədris fəaliyyət növündən di-

gərinə keçirərək uşağın marağını stimullaşdırmaq lazımdır.

Ümumilikdə, bir sıra işlərdə böyük məktəbəqədər yaşlı uşaqlar və kiçik məktəblilər üçün incəsənət sahəsində proqramların həm davamlılıq, həm də onların uşaqlara tərbiyəvi təsirinin səmərəliliyini artırmaq baxımından uyğunlaşdırılmasının zəruriliyinə diqqət yetirilir.

Y.İ. Koroteyeva kiçikyaşlı məktəblilərin qabiliyyətlərinin inkişafında sistemliliyə ehtiyac olduğunu qeyd edir. Əks halda ya motorika, ya da təxəyyül inkişaf edir, yəni birtərəfli inkişaf yaranır, lakin sistem və bütövlük lazımdır. Uşaq sənət dünyasına daxil olmalıdır, bədii ifadə dilinə yiyələnməli və bununla da öz yaş dövrünün imkanlarını genişləndirməli və bədii təfəkkürünü zənginləşdirməlidir [4].

Beləliklə, məktəbəqədər yaşlı uşaqlarda mənəvi-estetik hisslərin formalaşmasının xüsusiyyətlərini, onların qabiliyyət və imkanlarını nəzərə almaq müəllimlər üçün vacibdir. Məktəbəqədər yaşlı uşaqlar təlimə hələ uyğunlaşmayıb, təşkil olunmuş dərslərə və materialın şüurlu mənimsənilməsinə hazır deyillər, onlarla oyun şəklində dərslər keçirmək daha yaxşıdır. Buna görə də böyük məktəbəqədər yaşlı uşaqlar üçün proqramların həyata keçirilməsinin müvəffəqiyyətinin vaxtında dəyişkənliyini (müxtəlifliyini) və gecikməsini nəzərə almaq vacibdir. Uşaqda idrak münasibəti ilə formalaşan "doğru – yanlış" meyarları əvəzinə qavrayış və davranışın estetik yönümü "uşağın digər qiymətləndirmə və özünəhörmət meyarlarının stimullaşdırılmasına əsaslanır: maraqlı – maraqsız, xoşagələn – xoşagəlməz, gözəl – çirkin, azad – qeyri-azad".

Məktəbəqədər yaşlı uşağın mənəvi-estetik hisslərinin formalaşdırılması yollarının təhlili göstərir ki, bu yaşda olan uşaqlarla işləyərkən incəsənət pedaqogikasına daha çox diqqət yetirilməlidir, çünki bu, uşağı dünya mədəniyyətinə, sənət əsərlərinin gözəlliyinə, xalq adət-ənənələrinə bələd olmaqla yanaşı, həm də bədii əsərlərin yaradılmasında iştirak etməyə, rəssamlıq, musiqi, ədəbiyyat dilini başa düşməyi öyrənməyə imkan verir.

İncəsənət pedaqogikasının elmi məktəblərinin (O.M. Rəcəbov, F.B. Sadıqov, V.C. Xəlilov, A.V. Bakuşinski, D.B. Kabalevski, B.M. Nemenski, B.P. Yusov) məktəbəqədər təhsil sahəsində səmərəliliyi onların ideyalarının universal xarakterini təsdiq edir.

Beləliklə, məktəbəqədər yaşlı uşaqlar, kiçikyaşlı məktəblilər və yeniyetmələr üçün ayrıca tolerantlıq tərbiyəsinə mövcud yanaşmalar spektrini nəzərə alaraq, məktəbəqədər və ibtidai məktəb yaşlı uşaqlarda tolerantlığın formalaşmasında davamlılığın nəzərə alınmasının vacibliyindən, uşağın bütün gələcək estetik, mədəni və mənəvi inkişafı üçün məktəbəqədər yaşda qoyulan təməldən danışmaq olar.

**Problemin aktuallığı.** Ümumbəşəri və milli dəyərlərə əsaslanan tərbiyə yalnız pedaqoji problem kimi deyil, həm də cəmiyyətin inkişaf problemi baxımından həyati əhəmiyyət kəsb edir. Şəxsiyyətin mühüm dəyərlərinin təməli təlim-tərbiyə prosesinin ilkin mərhələsində qoyulduğundan, məhz bu problemin həlli məktəbəqədər tərbiyə müəssisələrində tolerantlığın formalaşması üçün xüsusi təşkil olunmuş prosesdən kənarda qala bilməz. Bir çox beynəlxalq, həm də respublikamızda qəbul edilən dövlət səviyyəli bəyannamə və hüquqi-normativ sənədlərdə tolerantlığın müxtəlif növlərinin tərbiyə olunmasının vacibliyi, tolerantlığın formalaşdırılması üçün siyasi, sosial və pedaqoji mühitin yaradılması məsələləri təsbit olunmuşdur.

**Problemin elmi yeniliyi.** Elmi-nəzəri səviyyədə tədqiqatın yeniliyi təhsil və tərbiyənin müxtəlif pillələrində, o cümlədən məktəbəqədər təhsil və tərbiyə dövründə tolerantlığın formalaşdırılması prosesinin əsasını əks etdirəcək nəzəri-metodoloji məsələlərə kifayət qədər aydınlıq gətirilməsidir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın ümumi məzmunundan, problemin həllinin imkan və yollarından, verilən təkliflərdən gələcək tədqiqatçılar, proqram və dərslik müəllifləri faydalana bilər.

**Ədəbiyyat:**


1. Развитие социальных эмоций у детей дошкольного возраста / Под ред. А.В. Запорожца, Я.З. Неверович. – М.: Педагогика, 1986. – 176с.
2. Лыкова, И.А. Лепим, фантазируем, играем. Книга для занятий с детьми дошкольного возраста. – М.: Сфера, 2000. – 112с.
3. Мальцева, И.В. Раннее развитие: лучшие методики и игры. – М.: Азбука, 2009. – 255с.

4. Коротеева, Е.И. Способности как актуальная проблема современной психолого-педагогической науки // Педагогика искусства: Электронный научный журнал – режим доступа http: // www.art-education.ru/AE-maqazine/, №4, 2010 (0,5 п.л.).

**E-mail:** sebine.qurbanova54@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **Ş.T. Tağıyev,**
*ped.ü.fəls.dok.* **X.A. Talıbova**
**Redaksiyaya daxil olub:** 11.03.2022